# CƏZADAN ŞƏRTİ OLARAQ VAXTINDAN ƏVVƏL AZAD OLUNMAQ HÜQUQU

**Bu hüquqdan kimlər istifadə edə bilər?**

**BAKI-2012**

## Cəzadan şərti olaraq vaxtından əvvəl azad olunmaq hüququ

Məhkumlar üçün vaxtından əvvəl cəza çəkdiyi yerdən azadlığa çıxmaq üçün mövcud olan variantlardan biri də cəzadan şərti olaraq vaxtından əvvəl azad olunmaqdır.

Məhkəmə islah işləri, intizam xarakterli hərbi hissədə saxlama, hərbi xidmət üzrə məhdudlaşdırma və ya müəyyən müddətə azadlıqdan məhrum etmə növündə cəza çəkən şəxs törətdiyi əməldən, cinayətin ağırlığından və ona verilən cəzanın müddətindən asılı olmayaraq çəkdiyi cəzadan şərti olaraq vaxtından əvvəl azad olunmaq hüququna malikdir. Lakin bu hüququn yaranması və ondan istifadə etmək üçün qanunvericiliklə şərtlər və qaydalar müəyyən olunur.

Cəzaların İcrası Məcəlləsinin 10 –cu maddəsində "məhkumların əsas hüquqları" əks olunmuşdur. Həmin maddənin 10.2.12. maddəsinə görə məhkumlar cəzadan şərti olaraq vaxtından əvvəl azad olunmaq üçün məhkəməyə ərizə ilə müraciət edə bilər.

## Nə vaxt müraciət etmək olar?

Cəzadan şərti olaraq vaxtından əvvəl azad olunmaq üçün məhkəməyə ərizə ilə müraciət hüququ Cinayət Məcəlləsinin 15.1.-ci maddəsində göstərilən təsnifata görə müəyyən olunmuş cəzalara uyğun olaraq yaranır.

- Böyük ictimai təhlükə törətməyən və ya az ağır cinayət törətməyə görə cəza almış məhkuma, cəzasının ən azı yarısını çəkdikdən sonra cəzadan şərti olaraq vaxtından əvvəl azad olunma tətbiq oluna bilər.
- Ağır və ya xüsusilə ağır cinayət törətməyə görə təyin edilmiş cəza müddətinin ən azı dörddə üç hissəsini çəkdikdən sonra cəzadan şərti olaraq vaxtından əvvəl azad olunma tətbiq oluna bilər.
- Əvvəllər cəzadan şərti olaraq vaxtından əvvəl azad edilmiş şəxs, əgər şərti olaraq vaxtından əvvəl azad etmə Cinayət Məcəlləsinin 76.6-cı maddəsində nəzərdə tutulmuş əsaslara görə ləğv edilmişdirsə, yaxud əvvəllər azadlıqdan məhrum etmə növündə cəza çəkmiş şəxs cinayətlərin residivinə görə yenidən azadlıqdan məhrum etmə növündə cəzaya məhkum edilmişdirsə, təyin edilmiş cəza müddətinin ən azı **dörddə üç hissəsini həqiqətən çəkdikdən** sonra tətbiq edilə bilər.

Azadlıqdan məhrum etmə cəzasının məhkum tərəfindən həqiqətən çəkilmiş müddəti altı aydan az ola bilməz.

## Necə müraciət etmək olar?

Cinayət Prosessual Məcəllənin 513.1. maddəsinə əsasən "Cəza çəkməkdən şərti olaraq vaxtından əvvəl azad etmə və cəzanın çəkilməmiş hissəsini daha yüngül cəza ilə əvəz etmə məhkumun ərizəsi, habelə yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə

komissiyanın vəsatəti əsasında cinayət qanununun müddəalarına müvafiq olaraq cinayət cəzalarını icra edən müəssisə və ya orqanın mülahizəsi nəzərə alınmaqla cəzanın çəkildiyi yer üzrə birinci instansiya məhkəməsi tərəfindən tətbiq olunur.

## Əgər məhkəmə müraciətinizi təmin etməyibsə...

Məhkəmə islah olunmaq üçün cəzanı tam çəkməsinə lüzum olmadığı qənaətinə gələrsə, onda, məhkumu cəzadan vaxtından əvvəl şərti azad edə bilər.

Cinayət Prosessual Məcəllənin 513.2. maddəsinə görə “ Məhkəmə cəzanın çəkilməsindən şərti olaraq vaxtından əvvəl azad etmədən və ya cəzanın çəkilməmiş hissəsini daha yüngül cəza ilə əvəz etmədən imtina etdikdə, həmin məsələlər üzrə ərizənin və ya vəsatətin təkrarən baxılmasına müvafiq ərizənin təmin edilməsinin rədd edilməsi haqqında məhkəmə qərarı çıxarıldığı gündən azı 6 (altı) ay keçdikdən sonra yol verilir”

## Şərti olaraq vaxtından əvvəl azad edilən şəxsin vəzifələri və məsuliyyəti

Cinayət Məcəlləsinin 76.2. maddəsinə görə “Cəzadan şərti olaraq vaxtından əvvəl azad etmə tətbiq edərkən, məhkəmə məhkumun üzərinə, bu Məcəllənin 70.5-ci maddəsində nəzərdə tutulmuş və cəzanın çəkilməmiş müddəti ərzində onun tərəfindən icra edilməli olan vəzifələr qoya bilər”.

Məhkəmə şərti məhkum etmə təyin edərkən məhkumun üzərinə aşağıdakı vəzifələri qoya bilər:

- Onun davranışı üzərində nəzarəti həyata keçirən orqanlara məlumat vermədən daimi yaşayış yerini, təhsil yerini, iş yerini dəyişməmək, müəyyən yerlərə getməmək, alkoqolizmdən, narkomaniyadan, toksikomaniyadan və ya zöhrəvi xəstəliklərdən müalicə kursu keçmək, ailəsinə maddi yardım göstərmək.
- Məhkəmə, məhkumun üzərinə onun islah olunmasına kömək edən digər vəzifələr də qoya bilər.

### Məsuliyyət

**Cinayət Məcəlləsinin 76.6.1. maddəsinə görə:**

Cəzadan şərti olaraq vaxtından əvvəl azad etmə tətbiq olunarkən məhkəmə tərəfindən onun üzərinə qoyulmuş vəzifələri yerinə yetirməkdən mütəmadi, yaxud qərəzli olaraq boyun qaçırdıqda və ya ictimai qaydanı pozduğuna görə barəsində inzibati tənbeh tətbiq edildikdə, **Cəzadan şərti olaraq vaxtından əvvəl azad edilmiş şəxslər üzərində nəzarəti həyata keçirən orqanın** təqdimatı əsasında məhkəmə şərti olaraq vaxtından əvvəl azad etmənin ləğv edilməsi və cəzanın çəkilməmiş hissəsinin icra olunması haqqında qərar çıxara bilər.

Cəzaların İcrası Məcəlləsində də cəzadan şərti olaraq vaxtından əvvəl azad edilmiş şəxslər üçün vəzifə və məsuliyyət müəyyən olunur.

**Bunlar:**

- Cəzadan şərti olaraq vaxtından əvvəl azad edilmiş şəxslər məhkəmə tərəfindən onlara həvalə edilən vəzifələri yerinə yetirməli və icra məmurunun çağırışı ilə gəlməlidirlər. Üzrsüz səbəblərdən gəlməyən şəxslər icra qurumunun rəhbəri tərəfindən təsdiq olunmuş icra məmurunun qərarı ilə məcburi gətirilə bilərlər.
- Cəzadan şərti olaraq vaxtından əvvəl azad edilmiş şəxs məhkəmə tərəfindən onun üzərinə qoyulmuş vəzifələrin yerinə yetirilməsindən mütəmadi, yaxud qərəzli olaraq boyun qaçırdıqda və ya ictimai qaydaları pozduğuna görə barəsində inzibati tənbeh tətbiq edildikdə, icra məmuru

və ya hərbi hissənin komandiri (rəisi) şərti olaraq vaxtından əvvəl azad etmənin ləğv edilməsi və cəzanın çəkilməmiş hissəsinin icra olunması haqqında məhkəməyə təqdimat verir.

- Cəzadan şərti olaraq vaxtından əvvəl azad edilmiş şəxs tərəfindən onun üzərinə qoyulmuş vəzifələrin il ərzində dəfələrlə yerinə yetirilməməsi vəzifələri mütəmadi yerinə yetirməmə hesab edilir.
- Otuz gündən artıq müddətdə olduğu yer müəyyən edilməyən şəxs ona həvalə edilmiş vəzifələri yerinə yetirməkdən qərəzli boyun qaçırmış hesab edilir.